

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 110 (21.262)

5 iyun 2015-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Meksika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xuan Rodrigo Labardini Floresin etimadnaməsini qəbul edib.

* * *

İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, "Bakı-2015" Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Avropa Oyunları çərçivəsində kamandan oxatma yarışlarının keçiriləcəyi Tofiq Bəhramov adına Respublika Stadionunda yaradılan şəraitlə tanış olublar.

* * *

İyunun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva paytaxtın Yasamal rayonunda Azərbaycan Milli Konservatoriyasının inzibati-tədris kompleksinin yaxınlığında salınan yeni parkda yaradılan şəraitlə tanış olublar.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 4 iyun tarixli Sərəncamı ilə su təsərrüfatı və meliorasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin əməkdaşları da vardır.

**"Şöhrət" ordeni ilə**
Əsgərov Əsgər Əli oğlu

**"Tərəqqi" medalı ilə**
Behbudov Elnur Behbud oğlu
Sadiqov Ərəstun İslam oğlu

## Heydər Əliyev lektoriyasının növbəti məşğələsi

*Naxçıvan Müəllimlər İnstitutunda "Ümummilli lider Heydər Əliyev və Azərbaycanın qurtuluşu" mövzusunda Heydər Əliyev lektoriyasının növbəti məşğələsi keçirilmişdir.*

Məşğələdə institutun rektoru, professor Oruc Həsənli məruzə edərək bildirmişdir ki, 1991-ci ildə öz dövlət müstəqilliyini elan edən Azərbaycan ağır problemlər burulğanına yuvarlanmışdı. O zaman ölkəyə başçılıq edən təsadüfi şəxslərin bacarıqsızlığı, səbatsızlığı ağır nəticələrə gətirib çıxarmışdı. Artıq 1993-cü ilin yazında ölkə daxilində vəziyyət böhran həddinə çatmışdı. Azərbaycan torpaqlarının bir hissəsi ermənilər tərəfindən işğal olunmuş, yüz minlərlə yurddaşımız öz doğma ocaqlarından qaçqın, köçkün vəziyyətinə düşmüş, gənc müstəqil dövlətimiz dünyada təklənmişdi. Ölkədə əksər müəssisələr fəaliyyətini dayandırmış, əhalinin maddi durumu pisləşmiş, siyasi arenada hərc-mərclik, başıpozuqluq meyilləri baş qaldırmış, demokratik dəyərlərin təşəkkülü istiqamətində heç bir iş görülməmiş, hakimiyyət korrupsiyalaşmış ünsürlərin əlində oyuncağa çevrilmişdi. Belə bir vaxtda xalq yeganə düzgün yolu seçmiş, dünya şöhrətli siyasi xadim, müdrik rəhbər Heydər Əliyevi təkidlə ölkə rəhbərliyinə dəvət etmişdir.



Bildirilmişdir ki, 1993-cü il iyunun 9-da xalqın təkidli tələbi ilə görkəmli dövlət xadimi Heydər Əliyev Naxçıvandan Bakıya gəlmişdir. 1993-cü il iyunun 15-də xalqın qətiyyətli istəyi gerçəkləşmiş, ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinə Sədr seçilmişdir. 1993-cü il oktyabrın 3-də xalqın böyük dəstəyi ilə Prezident seçilən görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi on il müddətində neçə-neçə qərinəyə sığmayan son dərəcə böyük işlər görmüşdür. Müdrik rəhbər Heydər Əliyev Azərbaycana ikinci rəhbərliyi dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə və böyük uğurla həyata keçirilməsi ilə səciyyələnir. ***"Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daima qoruyub saxlayacağıq"***, – deyən ümummilli liderimiz bu tarixi nailiyyətin, milli istiqlalımızın qorunub saxlanılması və möhkəmləndirilməsi üçün tarixi xidmətlər göstərmişdir. Ulu öndər Vətənini və xalqını bəlalardan qorumuş, xilas etmişdir. Dahi rəhbərin müdrik siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırılmış, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradılmış, vətəndaş həmrəyliyi bərpa olunmuş, iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanılmış, Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Vurğulanmışdır ki, müstəqillik yolunda inamla irəliləyən Azərbaycanda bu gün ulu öndərin amal və əməlləri dönmədən həyata keçirilir. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

## Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş konfrans



*İyunun 4-də AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat bağında Ümumdünya Ətraf Mühitin Mühafizəsi Gününə həsr olunmuş konfrans keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, AMEA Naxçıvan Bölməsi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər, Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov açıb. Bildirilib ki, təbiətin mühafizəsi bütün dövrlərdə ən vacib məsələlərdən olub. Son illərdə ekosistemə daxil olan müxtəlif bitki və heyvan növlərinin azalması və ya tamamilə tükənməsi ümumbəşəri xarakter daşıyan təbiətin mühafizəsini daha da aktuallaşdırıb. Biomüxtəlifliyin zəngin olduğu Azərbaycanda təbiətin mühafizəsi, eləcə də müxtəlif ekoloji problemlərin həllinə göstərilən səylər ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu hər iki dövrdə diqqət mərkəzində olub. Bu sahəyə aid qanunvericilik bazasının hazırlanması, müxtəlif dövlət proqramlarının həyata keçirilməsi ölkəmizdə ekoloji mühitin saflaşdırılmasında mühüm rol oynayıb.

Qeyd olunub ki, ötən əsrin sonlarından başlayaraq Naxçıvan Muxtar Respublikasında ətraf mühitə münasibətin dəyişməsi, ekoloji problemlərin davamlı diqqətdə saxlanılması və digər zəruri tədbirlərin həyata keçirilməsi regionda biomüxtəlifliyin təmin olunmasına gətirib çıxarıb. Eyni zamanda muxtar respublika ərazisində milli park, qoruq, yasaqlıqların yaradılması, ova moratoriumun 10 ilə yaxın müddətdə fəaliyyətdə olması nadir və nəsli kəsilməkdə olan növlərin artımına ciddi təsir edib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin sektor müdiri Rasim Rüstəmov bildirib ki, bu gün muxtar respublikamızda gənc nəslin ətraf mühiti dərk edərək mühafizə etməsi üçün ekoloji tərbiyənin böyük əhəmiyyəti var. Ekoloji tərbiyənin məqsədyönlü aparılması şagirdlərin ekoloji biliklərini dərinləşdirir, onların təbiətə baxışlarını zənginləşdirir. Buna görə də muxtar respublikanın ümumtəhsil məktəblərində biologiya fənninin tədrisi prosesində ekoloji biliklərin ilkin elementlərinin öyrədilməsi və ekoloji dərnəklərin təşkili diqqət mərkəzində saxlanılır. Məktəblilər ekoloji biliklərə yiyələnməklə ətraf mühitə münasibətlərini düzgün qurur, ekoloji təhsil alırlar. Bu isə nəticədə, onlarda ekoloji mədəniyyəti formalaşdırır.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Elçin Kazımov isə muxtar respublikada ekoloji sahədə görülən işlərdən danışıb, təbiəti mühafizənin hər kəsin vətəndaşlıq borcu olduğunu deyib.

Sonra tədbir iştirakçıları Nəbatat bağını gəziblər, burada yetişdirilən müxtəlif bitki növləri ilə əyani tanış olublar.

***Naxçıvan Dövlət Tarix Muzeyi və Cəmşid Naxçıvanskinin ev-muzeyinin birgə təşkilatçılığı ilə Cəmşid Naxçıvanskinin 120 illik yubileyinə həsr olunan "Azərbaycanın hərb tarixində Cəmşid Naxçıvanskinin yeri və rolu" mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov açıb.***

## Görkəmli sərkərdənin 120 illik yubileyi qeyd edilir

Cəmşid Naxçıvanskinin ev-muzeyinin direktoru Zeynəb Heydərovanın "Generallar nəsli", həmin muzeyin fond müdiri-elmi işçisi Gülnaz Hüseynovanın "Cəmşid Naxçıvanskinin həyat və fəaliyyəti", Heydər Əliyev adına Hərbi Liseyin müəllimi Mirismayıl Seyidovun "Hərbi kadr hazırlığına Heydər Əliyev adına Hərbi Liseyin töhfəsi" mövzularında məruzələri dinlənilib.

Qeyd olunub ki, Azərbaycanın milli hərb sənəti tarixinə qızıl səhifələr yazan görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin bu il anadan olmasının 120 illiyi tamam olur. Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 2 aprel tarixli Sərəncamında deyilir: "Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir". Bu sərəncamdan sonra, aprel ayının 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb.

Bildirilib ki, unudulmaz sərkərdə Cəmşid Naxçıvanski yunkerlikdən sərkərdəyədək yüksəlib. Arxiv sənədlərindən, müasirlərinin xatirələrindən məlum olur ki, o, zəngin və maraqlı həyat yolu keçib. Xan əsilli sərkərdə ulu babalarının və atasının döyüş yolunu zəfərlərlə, özünəməxsus istedad və bacarıqla davam etdirib. Onun haqqında Azərbaycanda, o cümlədən keçmiş Sovet İttifaqında, əsasən, 1971-ci ildən sonra məqalələr yazılıb. 1969-cu ilin 14 iyulunda Azərbaycanın rəhbəri seçilən ulu öndər Heydər Əliyevin Cəmşid Naxçıvanskinin adının unudulmaması üçün atdığı qəti, ciddi addımlar nəticəsində qəhrəman sərkərdə haqqında elmi və elmi-publisistik məqalələr işıq üzü görüb.

Sonda tədbir iştirakçıları Naxçıvan Dövlət Tarix Muzeyinin eksponatlarına baxıblar.

**Xəbərlər şöbəsi**

## Sertifikasiya imtahanının müsahibə mərhələsi keçirilib

*Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir.*

Məlum olduğu kimi, bu işə 2011-ci ilin sentyabr ayından başlanılıb və ötən dövr ərzində imtahanlarda iştirak edən 514 həkim, 290 orta tibb işçisi şəffaf şəraitdə test imtahanlarını və müsahibə mərhələsini uğurla başa vuraraq növbəti beş il üçün sertifikat alıblar.

İyunun 3-də keçirilən növbəti sertifikasiya imtahanının müsahibə mərhələsində 17 ixtisas üzrə həkimlər öz bilik və bacarıqlarını sınamalı olublar.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən müsahibə turunda həkimlərə öz ixtisaslarına aid nəzəri, habelə onların bilik səviyyəsini və peşə vərdişini müəyyən edən praktik suallar verilib.

Müsahibələr açıq, hər bir mütəxəssislə fərdi qaydada 30 dəqiqə müddətində aparılıb. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Naxçıvan Muxtar Respublikası Regional Bölməsi əməkdaşının iştirakı ilə keçirilən müsahibənin şəffaflığı təmin edilib.

Müsahibədən sonra imtahan komissiyasının üzvləri verilmiş cavabları müzakirə edərək ümumi rəy əsasında müsahibənin nəticələrini elan ediblər. 31 nəfər sertifikasiya imtahanını uğurla başa vurub. Səkkiz nəfər imtahanda iştirak etməyib.

Səciyyəvi cəhət budur ki, imtahanların şəffaf, tam obyektiv şəraitdə keçirilməsi həkimlərin hazırlığına öz müsbət təsirini göstərdiyindən zəruri həddi keçə bilməyənlərin sayı get-gedə azalır. Bu imtahanda onların hamısı növbəti 5 il üçün sertifikat alıblar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

5 iyun su təsərrüfatı və meliorasiya işçilərinin peşə bayramı günüdür

# Muxtar respublikada meliorasiya və su təsərrüfatı sahəsinin inkişafı diqqət mərkəzindədir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 may tarixli Sərəncamına əsasən, hər il iyunun 5-i ölkəmizdə "Su təsərrüfatı və meliorasiya işçiləri günü" kimi qeyd edilir.***

Azərbaycanda meliorasiya və irriqasiya işlərinə keçən əsrin əvvəllərindən başlansa da, onun genişmiqyaslı və intensiv inkişafı ötən əsrin 70-ci illərinə təsadüf edir. O dövrdə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə kənd təsərrüfatının inkişafı ilə bağlı tarixi qərarlar qəbul edilmiş, bu sahədə görülən işlərin davamı olaraq ölkəmizdə meliorasiya və irriqasiya kompleksi yaradılmışdır. Bu illər ərzində ölkəmizdə istifadəyə verilən yeni su anbarları və nasos stansiyaları, tikilən hidroqovşaqlar torpaqların etibarlı su təminatına və əkinçiliyin inkişafına geniş imkanlar açmışdır. Araz çayı üzərində həcmi 1,35 milyard kubmetr olan su anbarı, Mil-Muğan hidroqovşağı, uzunluğu 37 kilometr olan Baş Mil Kanalı tikilib istismara verilmişdir. Nəticədə, 1971-1975-ci illərdə 23,5 min hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır.

1993-cü ildə ulu öndər Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra meliorasiya və su təsərrüfatı sistemində daha geniş islahatlar həyata keçirilmiş, bu sahədə zəngin normativ-hüquqi baza yaradılmışdır. Ulu öndər bu sahəyə yüksək qiymət verərək deyirdi: ***"Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik".***

Dahi şəxsiyyətin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də ölkəmizdə su təsərrüfatı və meliorasiya sahəsinin inkişafına xüsusi diqqət yetirir. Ölkə başçısının rəhbərliyi ilə bu sahədə mühüm dövlət proqramları təsdiq olunmuş, kənd təsərrüfatının inkişafı, meliorativ tədbirlərin genişləndirilməsinə diqqət artırılmışdır.

Naxçıvan Muxtar Respublikasında da su təsərrüfatı və meliorasiya sahəsi böyük inkişaf yolu keçmişdir. Bu gün muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin təkmilləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Son illər meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, suvarma şəbəkələrinin genişləndirilməsi, su sistemlərində təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və onların meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işləri, həmçinin içməli su təminatının yaxşılaşdırılması sahəsində kompleks işlər görülmüşdür. Bu işlərin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin üzərinə mühüm vəzifələr düşür. Komitənin fəaliyyəti üçün lazımi şərait yaradılmış, müasir texnikalar alınıb istifadəyə verilmiş, rayon Suvarma Sistemləri idarələrinin maddi-texniki bazası möhkəmləndirilmişdir. Muxtar respublikanın melioratorları yaradılan şəraitdən səmərəli istifadə edərək əhalinin içməli suya olan tələbatının ödənilməsi, suvarma şəbəkələrinin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər görür, kənd təsərrüfatının inkişafına öz töhfələrini verirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərman və sərəncamları ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"na, "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na və "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən, suvarma sistemlərinin yenidən qurulması və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, mövcud su resurslarından istifadə imkanlarının genişləndirilməsi və suvarma drenaj şəbəkələrinin inkişaf etdirilməsi sahəsində mühüm tədbirlər həyata keçirilir.

Suvarma suyuna olan tələbatın ödənilməsi bol məhsul istehsalında ən vacib amillərdəndir. Bu məqsədlə ötən il 83,8 kilometr kanal, 571,4 kilometr ara arxları lildən təmizlənmiş, 83,5 kilometr yeni suvarma xətti çəkilmiş, 14 kilometr xətt təmir olunmuşdur. Naxçıvanın torpaq-iqlim xüsusiyyətləri nəzərə alınmaqla torpaqlardan səmərəli istifadə edilməsinə də diqqət artırılmış, Şərur, Culfa, Sədərək, Ordubad, Kəngərli, Babək rayonlarında və Naxçıvan şəhərində şoranlaşmış və bataqlaşmış torpaqların miqdarı müəyyənləşdirilərək xəritələşdirmə işləri aparılmışdır. Əkinəyararlı torpaqlarda şoranlaşma və bataqlaşmanın qarşısının alınması məqsədilə kollektor-drenaj şəbəkələri daim işlək vəziyyətdə saxlanılır. Ötən il 79,7 kilometr kollektor lildən təmizlənmiş, 22,1 kilometr yeni drenaj tikilmiş və 3,1 kilometr drenaj isə təmir olunmuşdur.

Son illər həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada istifadə olunan hidrotexniki qurğuların sayı əsaslı surətdə artmış, torpaqların su təminatı yaxşılaşdırılmışdır. Hazırda muxtar respublikada 108 nasos stansiyası və 849 subartezian quyusu vardır. Həmçinin xalqımızın maddi-mədəniyyət nümunələri sayılan, suvarma və içməli su mənbəyi kimi istifadə olunan kəhrizlərin bərpası da qarşıya mühüm vəzifə kimi qoyulmuşdur. Bu məqsədlə 2003-cü ildə Kəhrizlər İdarəsi yaradılmış, bu idarəyə kəhrizlərin qeydiyyata alınaraq balansa götürülməsi və onların təmir-bərpası tapşırılmışdır. Ötən müddət ərzində idarə tərəfindən muxtar respublikadakı kəhrizlər pasportlaşdırılmış, tariximizi özündə yaşadan bu hidrotexniki qurğularda təmir-bərpa işləri aparılmışdır. Təkcə 2014-cü ildə 10 kəhriz bərpa olunaraq istifadəyə verilmişdir. Ötən il Sədərək rayonu, bu il isə Kəngərli rayonu ərazisində yeni nasos stansiyalarının və suvarma şəbəkələrinin istifadəyə verilməsi də bu sahəyə ayrılan diqqətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu sahədə həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayaraq demişdir: ***"Son illər ölkəmizdə, eləcə də muxtar respublikada meliorasiya və su təsərrüfatı sisteminin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yeni hidrotexniki qurğuların tikilməsi, rentabelli suvarma şəbəkələrinin qurulması torpaqların əkin dövriyyəsinə qatılmasına və məhsul istehsalının artmasına səbəb olmuşdur".***

Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri də əhalinin içməli suya olan tələbatını ödəmək və insanları sağlam və ekoloji cəhətdən təmiz su ilə təmin etməkdir. Bu gün muxtar respublikada içməli su və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində kompleks tədbirlər görülür, kaptajlar bərpa olunur, yeni içməli su xətləri çəkilir, mənzillər keyfiyyətli içməli su ilə təmin olunur. Naxçıvan şəhərində "Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Layihəsi" çərçivəsində həyata keçirilən tədbirlər bu mənada mühüm əhəmiyyətə malikdir. Layihə çərçivəsində inşa olunan və ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi gələcək perspektiv də nəzərə alınmaqla Naxçıvan şəhərində əhalini və sənaye obyektlərini fasiləsiz olaraq ekoloji cəhətdən təmiz su ilə təmin etmək gücündədir. Artıq Naxçıvan şəhərindəki mənzillər keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunmuşdur. Bu sahədə işlər təkcə Naxçıvan şəhəri ilə məhdudlaşmır. Muxtar respublikanın rayonlarında da içməli su və kanalizasiya şəbəkələrinin genişləndirilməsi işləri aparılır. Artıq bu ilin sonunadək Şahbuz və Culfa rayonlarında içməli su şəbəkəsinin və sutəmizləyici qurğunun istifadəyə verilməsi nəzərdə tutulur.

2012-ci ildən həyata keçirilən "Naxçıvan Muxtar Respublikasında Selə Qarşı Tədbirlər, Suvarılan Ərazilərin Modernləşdirilməsi və Genişləndirilməsi" layihəsi çərçivəsində də işlər uğurla davam etdirilir. Layihəyə uyğun olaraq, Vayxır sol sahil kanalından qidalanan yeraltı suvarma şəbəkəsi və drenaj sistemləri qurulur, Araz çayı boyunca selə qarşı tədbirlər həyata keçirilir. Bu günədək Araz çayı boyunca sahilbərkitmə işlərinin 80 faizi həyata keçirilmişdir. Yeraltı suvarma şəbəkəsi və drenaj sistemlərinin tikintisi isə davam etdirilir. Burada işlər yekunlaşdıqdan sonra 2 min hektar ərazi suvarma suyu ilə təmin ediləcəkdir. Bu işlərin görülməsində əsas məqsəd əkin sahələrini, eləcə də yaşayış məntəqələrini sel sularının təsirindən qorumaq, su ehtiyatlarından səmərəli istifadə etmək, torpaqlarda şoranlaşmanın qarşısını almaq və suyu itkisiz olaraq əkin sahələrinə çatdırmaqdan ibarətdir.

*2015-ci il ölkəmizdə və muxtar respublikada "Kənd təsərrüfatı ili" elan olunmuşdur. Su təsərrüfatı və meliorasiya sahəsində çalışanların üzərinə mühüm vəzifələr düşür. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin kollektivi "Kənd təsərrüfatı ili"ni yüksək nailiyyətlərlə başa vurmaq üçün bundan sonra da səylərini artıracaq, əkin sahələrinin suvarma suyu ilə təminatını daha da yaxşılaşdırmaq istiqamətində ardıcıl tədbirlər görəcək, mövcud meliorasiya və irriqasiya sistemlərinin lazımi səviyyədə istismarını təmin edəcəkdir.*

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

***Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra həyata keçirilən islahatların nəticəsi olaraq kənd təsərrüfatı yeni inkişaf mərhələsinə qədəm qoydu, torpaq öz sahibinə – kəndliyə verildi və nəticədə, torpaq üzərində yeni mülkiyyət formaları, yeni əmək münasibətləri formalaşdı. İslahatlar muxtar respublikada da sahibkarlığın inkişafına səbəb oldu.***

# Torpaq üzərində icarə münasibətləri "Kənd təsərrüfatı ili"ndə bu sahədə bələdiyyələrin üzərinə hansı vəzifələr düşür?

Qeyd edək ki, ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra icarə və torpaq icarəsi ilə bağlı məsələlərin tənzimlənməsinə ciddi diqqət yetirildi. "İcarə haqqında" və "Torpaq icarəsi haqqında" qanunlar və digər hüquqi aktlar qəbul edildi. Həmin qanunların qəbul edilməsi əmlakın və torpağın ayrı-ayrı fiziki və hüquqi şəxslərə icarəyə verilməsi imkanlarını reallaşdırdı. "İcarə haqqında" Qanuna görə, icarə əmlaka, torpağa və digər təbii ehtiyatlara müqavilə əsasında, əvəzi ödənilməklə müddətli sahib olmaq və bunlardan istifadə etməkdir. Əmlakı icarəyə vermək hüququ mülkiyyətçiyə, onun vəkil etdiyi orqanlara, təşkilatlara və fiziki şəxslərə, habelə əmlak üzərində digər əşya hüquqlarına malik olan şəxslərə malikdir. Hər hansı fiziki və hüquqi şəxs icarəçi ola bilər.

"Torpaq icarəsi haqqında" Qanun dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların icarəyə verilməsinin və icarə münasibətlərinin hüquqi əsaslarını tənzimləyir. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinin xüsusi mülkiyyətində olan torpaqlar mülki və torpaq qanunvericiliyində nəzərdə tutulmuş qaydada icarəyə verilə bilər. İcarəyəverənlə icarəçi arasında yaranan hüquqi və iqtisadi əlaqələr torpaq üzərində icarə münasibətləridir. Torpaq üzərində icarə münasibətlərinin obyektləri dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardır. Torpaq islahatının həyata keçirilməsi nəticəsində bələdiyyə mülkiyyətinə də torpaqlar verilib.

Bələdiyyə mülkiyyətində olan ehtiyat fondu torpaqları, xüsusi mülkiyyətdə olan torpaqlar icarəyə verilə bilər. Torpaq üzərində icarə münasibətlərinin subyektləri bələdiyyələr və Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşlarıdır. Hüquqi şəxslər və vətəndaşlar icarə münasibətlərində icarəyə verənlər və icarəçi kimi iştirak edirlər. Torpaqların icarəyə verilməsi zamanı bir sıra şərtlərə əməl olunmalıdır. Torpaqdan istifadənin müddətinin və xüsusiyyətlərinin, qonşu torpaqların mülkiyyətçilərinin mənafelərinin nəzərə alınması, torpaqların təyinatı üzrə istifadə edilməsi, ekoloji tarazlığın gözlənilməsi və ətraf mühitin mühafizəsinin təmin edilməsi, kənd təsərrüfatı torpaqlarının mühafizəsi, keyfiyyətinin və münbitliyinin qorunması, bərpası və yaxşılaşdırılmasının təmin olunması da bu şərtlər sırasındadır.

Bələdiyyə torpaqlarının icarəyə verilməsi barədə qərar torpağı icarəyəverənlə icarəçi arasında müqavilə bağlanılmaqla həyata keçirilir. Müqavilədə icarəyəverən və icarəçinin adları, hüquqi ünvanları, tərəflərin hüquq və vəzifələri, torpaq sahəsinin ölçüsü, keyfiyyət kateqoriyası, sərhədləri və təyinatı barədə məlumatlar, müddəti, icarəhaqqı və digər məsələlər öz əksini tapmalıdır. İcarəhaqqı torpaqdan müddətli istifadəyə görə icarəçinin icarəyəverənə ödədiyi vəsaitdir.

Respublikamızda bələdiyyə mülkiyyətində olan torpaqların icarəyə verilməsini bələdiyyələr həyata keçirirlər. "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" (29 iyul 2001-ci il) Qanunda torpaq sahələrinin icarəyə verilməsi ilə bağlı məsələlər də öz əksini tapıb. İcarəçinin hüquqları və vəzifələri "Torpaq icarəsi haqqında" Qanunla müəyyənləşdirilib. İcarəverənin hüquqlarına torpaq sahələrinin təyinatı üzrə istifadəsinə nəzarət etmək, icarəçinin təqsiri üzündən icarəyə verilmiş torpaqlara vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək və sair daxildir. Yadda saxlamaq lazımdır ki, icarəçinin icarəyə götürdüyü torpaqdan istifadə nəticəsində əldə etdiyi məhsul və gəlir icarəçinin mülkiyyətidir. İcarəçi müqaviləyə uyğun olaraq, özünün təsərrüfat fəaliyyətini müstəqil müəyyənləşdirir, məhsuluna və əmlakına sərbəst sərəncam verir.

Məlum olduğu kimi, bələdiyyə yerli özünüidarəetmə formasıdır və bələdiyyəyə mənsub olan bütün növ daşınar və daşınmaz əmlak bələdiyyə mülkiyyətidir. Bələdiyyələr yerli iqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarından səmərəli istifadə istiqamətlərini müəyyənləşdirməli, torpaqların əkilməsinə, ərzaq bolluğunun yaradılmasına öz töhfələrini verməlidirlər. Nəzərə alsaq ki, muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır və kənd təsərrüfatı ilə məşğul olur, bələdiyyə mülkiyyətində olan torpaqlardan səmərəli istifadə yolları diqqətdə saxlanılmalıdır. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi "Kənd təsərrüfatı ili"ndə qarşıda duran vəzifələrə uyğun olaraq, bələdiyyələrə torpaqların icarəyə verilməsi qaydaları ilə bağlı metodik materiallar hazırlayıb göndərib, muxtar respublikanın şəhər və rayonlarında bələdiyyələr üçün təşkil edilən seminar-müşavirələrdə "Kənd təsərufatı ili"ndə bələdiyyələrin üzərinə düşən vəzifələrlə bağlı məruzələr edilib, maarifləndirmə tədbirləri aparılıb. Torpağın icarəyə verilməsi ilə bağlı məsələlərin qanunvericilikdə tənzimlənməsi torpağın icarəyə verilməsi hüququnun həyata keçirilməsinə geniş imkanlar yaradır. Torpaqların icarəyə verilməsi torpaqların əkin dövriyyəsinə cəlb olunmasına təsir edir ki, bu da ərzaq təhlükəsizliyinin təmin edilməsində çox əhəmiyyətlidir.

Torpaq icarəsi haqqında qanunvericiliyin pozulmasına görə, qanunvericiliklə və müqavilə ilə məsuliyyət də müəyyən edilib. Belə ki, icarə müqaviləsi üzrə vəzifələri icra etməmək və ya lazımınca icra etməmək, o cümlədən müqaviləni birtərəfli qaydada dəyişdirmək və pozmaq üstündə tərəflər məsuliyyət daşıyırlar. Torpaq üzərində qanunla müəyyən edilmiş mülkiyyət hüququnu pozma, yəni torpaq sahəsini özbaşına tutma, dəyişdirmə və ya becərmə cinayət məsuliyyəti yaradır və bu əməllər mülkiyyət əleyhinə olan cinayətlər hesab olunur. Həmin cinayətlərin ictimai təhlükəliliyi ondan ibarətdir ki, bu əməllərin törədilməsi iqtisadi fəaliyyətdə çox mühüm rol oynayan torpaqdan qanuni istifadə, ona sahiblik və onun barəsində sərəncam vermənin qaydalarını pozur, torpaqların təyinatının dəyişməsinə səbəb olur.

Naxçıvan Muxtar Respublikasında digər iqtisadi məsələlərlə yanaşı, aqrar sektor, o cümlədən torpaq-hüquq və torpaq-istehsal münasibətlərinin dövlət səviyyəsində tənzimlənməsi məsələsi də daim diqqət mərkəzində saxlanılır. Qeyd etmək lazımdır ki, "Kənd təsərrüfatı ili" müxtəlif dövlət qurumları ilə yanaşı, yerli özünüidarəetmə əsasında fəaliyyət göstərən bələdiyyələr qarşısında da mühüm vəzifələr qoyub. Bu vəzifələrdən ən əsası kənd təsərrüfatı potensialının gücləndirilməsində icarəyə götürülmüş torpaqlardan təyinatı üzrə və səmərəli istifadə olunmasıdır. Bələdiyyələr dövlətimizin onlar üçün yaratdığı şəraitin müqabilində səmərəli fəaliyyət göstərməli, fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmalı, torpaqlardan səmərəli və təyinatı üzrə istifadə edilməsinə diqqət göstərməli, torpaqların icarəyə verilməsi zamanı vətəndaşlar arasında bərabər hüquqi imkanların yaradılmasını lazımi səviyyədə təmin etməlidirlər.

*Unutmaq olmaz ki, müəyyən olunmuş vəzifələrin layiqincə yerinə yetirilməsi muxtar respublikada ərzaq bolluğunun yaradılmasında yaxından iştirak etmək deməkdir.*

**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin aparıcı məsləhətçisi, II dərəcəli ədliyyə qulluqçusu***

## 5 iyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günüdür

***Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1972-ci il 15 dekabr tarixli qərarına əsasən, hər il iyunun 5-i "Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü" kimi qeyd olunur.***

# Ətraf mühiti qorumaq hər kəsin vətəndaşlıq borcudur



Ölkəmizdə ekologiya elminin əsasları XX əsrin 50-ci illərindən başlayaraq böyük təbiətşünas alim, akademik Həsən Əliyev tərəfindən qoyulmuş, bu sahənin inkişafı üçün mühüm elmi ədəbiyyatlar çap edilmişdir. Ekologiyaya dövlət səviyyəsində münasibətin göstərilməsi isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 70-ci illərində ulu öndərin rəhbərliyi ilə ekoloji problemlərin həlli istiqamətində mühüm qərarlar qəbul edilmiş, ictimaiyyətin diqqəti ətraf mühitin mühafizəsinə yönəldilmiş, geniş yaşıllaşdırma tədbirləri aparılmışdır. Ümummilli lider ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra da ekoloji problemlərin həlli diqqətdə saxlanılmış, bu sahədə dövlət siyasətini tənzimləyən zəngin qanunvericilik bazası yaradılmışdır. 2001-ci ildə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmış, ölkəmizdə ekoloji siyasəti həyata keçirən vahid dövlət idarəetmə strukturu formalaşdırılmışdır. Dahi şəxsiyyətin müəllifi olduğu Azərbaycan Respublikası Konstitusiyasında təbii ehtiyatlardan səmərəli istifadə, hər kəsin sağlam ətraf mühitdə yaşamaq və ətraf mühiti qorumaq hüquqları öz əksini tapmışdır. Həmçinin müxtəlif illərdə qəbul edilmiş "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının qanunları da təbiətin qorunması, ekoloji mühitin saflaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümummilli lider Heydər Əliyev demişdir: ***"Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genofondunun qorunması, ekoloji sağlamlıq və digər qlobal problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları yalnız birgə səylərlə həll etmək mümkündür".***

Heç bir dövlət sərhədi olmayan ekoloji problemlər daha çox millətlərarası, dövlətlərarası bir məsələ olduğundan onların aradan qaldırılması üçün də birgə fəaliyyətin qurulması vacib məsələdir. Buna görə də ölkəmiz bu sahədə fəaliyyət göstərən beynəlxalq ekoloji təşkilatlarla əməkdaşlığa mühüm əhəmiyyət verir. Belə ki, Azərbaycan planetin mövcud təbii sərvətlərindən, bitki və heyvan ehtiyatlarından, sudan, atmosferdən, torpaqdan səmərəli istifadə edilməsi, qorunması və bərpası məqsədilə 20-dən çox ekoloji konvensiyalara qoşulmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu sahənin inkişafına xüsusi diqqət göstərir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycanda ekoloji məsələlərə dair müşavirələrin keçirilməsi, beynəlxalq ekologiya sərgilərinin təşkil olunması bu sahəyə göstərilən diqqətin real ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında əlverişli ekoloji mühitin yaradılması məqsədilə dövlət proqramları qəbul edilmiş, ardıcıl tədbirlər görülmüşdür. Bu gün muxtar respublikada həyata keçirilən ekoloji tədbirlər beynəlxalq ekoloji təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Belə ki, muxtar respublika ərazisinin 27 faizdən çoxunun xüsusi mühafizə olunması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir.

Muxtar respublika ərazisində təbii iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq yaşıllıqların qorunması və artırılmasına xüsusi diqqət yetirilir. Kəskin kontinental iqlim şəraitinin mövcud olması, günəşli saatların çoxluğuna baxmayaraq, Naxçıvanda meşələrin qorunması ilə yanaşı, yeni yaşıllıqların salınması istiqamətində də mühüm işlər görülür. Bu tədbirlərin əsası ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulmuşdur. Həmin illərdə blokada çətinliklərinə baxmayaraq, ümummilli liderimizin səyi nəticəsində muxtar respublikada imeciliklərin keçirilməsinə başlanılmış, təbiətin, yaşıllığın qorunması və bərpası işlərinə diqqət artırılmışdır. 1995-ci ildən ötən dövrdə həyata keçirilən ekoloji tədbirlər nəticəsində isə muxtar respublikanın yaşıllıqlarla örtülü sahəsi əsaslı şəkildə artmışdır. Bu dövrdə 14 min hektardan çox sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilmişdir. Nəticədə, yaşıllıqların sahəsi 10 dəfədən çox artmış və muxtar respublika ərazisinin 12 faizə yaxını yaşıllıqlarla örtülmüşdür.

"2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın qəbul edilməsi ilə bu sahədə fəaliyyətin ekoloji əhəmiyyəti ilə bərabər, iqtisadi səmərəliliyi də önə çəkilmiş, meyvəçilik təsərrüfatlarının inkişafına stimul verilmişdir. Ötən 20 ildə muxtar respublika ərazisində, ümumilikdə, min hektardan çox ərazidə meyvə bağları salınmışdır. Xüsusilə yaşıllaşdırma tədbirlərinin kənd təsərrüfatı əkinləri üçün yararsız olan ərazilərdə aparılması torpaqların münbitliyini xeyli artırmışdır.

Əlverişli ekoloji mühitin yaradılmasında mühüm amillərdən biri də təbiət abidələrinin, bitki və heyvan ehtiyatlarının qorunması və bərpa edilməsidir ki, bu da xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması hesabına mümkündür. Muxtar respublikada bu sahədə də mühüm tədbirlər görülmüş, xüsusi mühafizə



olunan təbiət ərazilərinin şəbəkəsi xeyli genişlənmişdir. 1969-cu ildə Ordubad Dövlət Təbiət Yasaqlığı, 2003-cü ildə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı və Şahbuz Dövlət Təbiət Qoruğu, 2005-ci ildə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu ildə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Bundan başqa, ölkə başçısının 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkının yaradılması təbiəti mühafizə ilə yanaşı, ekoturizmin inkişafına da əlverişli şərait yaratmışdır.

Muxtar respublika təbiətinin zənginliyi həm də burada nadir bitki və heyvan növlərinin mövcudluğu ilə ölçülür. Naxçıvan ərazisində xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, ekoloji maarifləndirmə tədbirlərinin intensiv hal alması fauna və flora müxtəlifliyinin qorunmasına və zənginləşdirilməsinə öz müsbət təsirini göstərir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən, ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı kitab" çap edilmişdir. Bu da sayı azalmaqda olan növlərin mühafizə edilməsi və artırılması baxımdan mühüm əhəmiyyət daşıyır.

İnsan-təbiət münasibətlərinin tənzimlənməsində və mövcud ekoloji problemlərin aradan qaldırılmasında ekoloji şüurun, ekoloji mədəniyyətin formalaşması və təbiətə qayğı ilə yanaşılması zamanın tələbinə çevrilmişdir. Böyük təbiətşünas alim, akademik Həsən Əliyev vaxtilə deyirdi ki, ***"Təbiətin keşiyini çəkmək üçün söz silahının gücündən istifadə etmək lazımdır".*** Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir, teleradio verilişləri və qəzet materialları hazırlanır, əhali arasında maarifləndirici söhbətlər aparılır.

Muxtar respublikada təbiəti mühafizə tədbirləri bundan sonra da diqqət mərkəzində saxlanılacaq, ekoloji problemlərin həllinə, yaşıllıqların qorunması və artırılmasına diqqət artırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# Ekoturizm sağlamlıq və təbiətə sevgi deməkdir



***Asudə vaxtın təşkili formaları arasında təbiətlə birbaşa ünsiyyət halında aktiv səyahət və istirahət növü olan ekoturizm mühüm yer tutur. İnsanın təbiət gözəlliklərinə olan marağı planetin istənilən yerindəki qeyri-adi təbii resurslara doğru onu səyahətə çəkir.***

Amma, əslində, turizmin bu növündə qeyri-adi heç nə yoxdur. Məhz hər bir insanın ürəyindəki torpağa məhəbbət hisləridir ki, onun üçün dağ çaylarının ağ örpəkli şəlaləsi dünyanın ən mahir rəssamının əsərindən də cazibədardır. Dağların yüksəkliklərindən göz işlədikcə ümman kimi üfüqlərə baxmaq, dağ yamaclarının nazəndə leylası bulaqların dirilik suyu hər dəfəsində insanı məst edir. Məhz belə təbiət gözəllikləri müasir ekoturizm həvəskarlarını özünə çəkən cazibə qüvvəsidir.

Ekoturizm və ümumiyyətlə, turizm bir yaradıcılıq sahəsidir desək, yanılmarıq. Bəzi insanlar yaradıcılığın sirrini yalnız incəsənət və buna yaxın sahələrdə axtarsalar da, amma, əslində, təbiət qədər ikinci bir bənzərsizliyə başqa yerdə rast gəlmək mümkün deyildir. Bu bənzərsizliyin kompozisiyasına uyğun olaraq yeni bir əsər ərsəyə gətirmək isə müasir tələbkar ekoturistə gözlədiyindən artıq heyrətləndirici resurslar və buna müvafiq xidmətlər təklif etmək bacarığıdır. Bu, əlbəttə ki, bir yaz günündə ailə üzvləri və dost-tanışlarla yaşıllığın qucağında gözəl bir süfrə açıb dincəlməklə bitmir. Düzdür, müasir ekoturların müxtəlif reseptləri vardır. Amma bir faktı hamı təsdiq edə bilər ki, təbiət qoynunda keçirilən günün ən yaddaqalan təəssüratı elə həmin gün rast gəldiyimiz qeyri-adi flora, fauna nümunəsi, yaxud unikal təbiət abidəsidir.

Məhz belə təəssüratı yada salanda səyahətlə keçən günlərin adi günlərdən nə ilə fərqləndiyini, onların nəyə görə daha yaddaqalan olduğunu deyə bilərik. Deməli, turizm səyahətlərinə yollanmağı sevdiyimiz kimi, dünyadakı turistləri də diyarımıza çəkən işləri ürəklə görmək lazımdır. Məhz bu sevginin gücü ilə təbiət abidələrimizi, tarixi-mədəni keçmişimizi dünya mirası nümunəsi kimi turistlərə tanıtmaq mümkündür. Doğrudan da, Naxçıvanda insanı heyrətə salacaq, həm də tək bir



dəfə deyil, buraya təkrar-təkrar səyahət edən səyyahlarda hər dəfə yeni təəssüratlar yaradacaq çox sayda turizm ehtiyatları vardır. Bu ehtiyatlardan səmərəli istifadə yollarının axtarılması günün əsas vəzifəsidir. Çünki bizim də turizmin və xüsusən ekoturizmin inkişafından gözlədiklərimiz vardır.

Müasir turizmdə artıq belə bir tezis qəti olaraq qəbul olunmuşdur ki, bölgəyə səyahət edən turistlərin yalnız gəlir mənbəyi deyil, eyni zamanda ölkə haqqında informasiya ixrac edən xoşniyyətli elçilər olduğu unudulmamalıdır. Yəni bölgəyə gələn əcnəbi turistlərdən "mədəniyyət idxalı" əvəzinə onlara öz mədəniyyətimizi tanıtmaq bugünkü turizm strategiyasının əsasını təşkil etməlidir. Bu isə, ilk növbədə, ölkədaxili turizmin, bunun da mühüm növlərindən biri olan ekoturizmin inkişaf etdirilməsi, gənclərin və müxtəlif həssas sosial kateqoriyalardan olan digər insanların buna cəlb olunması ilə başlayır. İndi sübut olunmuşdur ki, məhz ekoturizm yolu ilə cəmiyyətdə mühüm dəyişikliklərə nail olmaq mümkündür. Çünki ekoturizm təbiəti sevməyin, ondan ilham almağın, mənəvi zənginləşməyin ən hamar yolu kimi öz təsdiqini tapmışdır. Bu gün zəif nəzarətdən və yaxud əhatəsindəki həmyaşıdlarının və lüzumsuz yad informasiya axınının təsirindən düzgün olmayan istiqamətdə formalaşan, xalqımızın tarixindən və qədim mədəniyyətindən məlumatlı olmadığı kimi, təbiətdən də uzaq düşmüş bəzi gənclərimizin fiziki və mənəvi tərbiyəsində muzeylərə və tarixi yerlərə təşkil olunan tur və ekskursiyalar kimi, ekoturizm kamplarının əhəmiyyətini də xüsusilə vurğulamaq lazımdır. Bəzi cavanlarımız Batabatın, Ağbulağın, yaxud Nəhəcirin yamacları boyunca birnəfəsə yürüş edəndən, dostları ilə narbənd ağacının kölgəsində süfrə açıb, baldırğan gözəsindən bir ovuc su içəndən sonra, görəsən, onların qolunu bükən tapılarmı? Lüks həyata öyrəşmiş bu gənclərə təbii qüvvələri dəf etməyi öyrədən, onları təbiətə yaxınlaşdırıb, yurd sevgisi hislərini dərinləşdirən tur və ekskursiyalar kütləvi hala gəldiyi zaman artıq boş vaxtını internetdə "əridənlərin" sayı da, şübhəsiz, azalacaqdır. Ona görə də cəmiyyətimizdə kütləvi idmanla bərabər, ekoturizmi də insanların asudə vaxtının səmərəli təşkili, gənclərin sağlam böyüməsinin mühüm vasitəsi kimi istifadə olunmasını həm sağlamlıq, həm də tərbiyəedici vasitə kimi tətbiq etmək mühüm əhəmiyyət daşıyır.

***Naxçıvanda bu istiqamətdə də həyata keçirilən tədbirlər artıq öz bəhrəsini verməkdədir.***

Əli CABBAROV

# Ailə və onun mənəvi əsasları

## *Bu mövzuda ali təhsil ocağında dəyirmi masa təşkil edilib*

***Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının təşəbbüsü ilə keçirilən növbəti dəyirmi masa "Ailə və onun mənəvi əsasları" mövzusuna həsr olunmuşdu.***

Universitetin müxtəlif fakültələrində təhsil alan, fəallıqları ilə seçilən tələbə-gənclərin iştirak etdiyi dəyirmi masada universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə çıxış edərək Azərbaycan xalqının sahib olduğu qədim və zəngin ailə ənənələrindən, ailənin milli dəyərlərin yaşadılmasında, cəmiyyətin düzgün idarə olunmasında, xalqın fiziki və mənəvi sağlamlığındakı əhəmiyyətli rolundan danışıb.

Qeyd olunub ki, sabahın ziyalıları olacaq tələbə-gəncləri həm də gələcəyin ailə başçısı, valideyn kimi formalaşdırmaq baxımından ali təhsil müəssisələrinin, burada çalışan professor-müəllim heyətinin üzərinə mühüm vəzifələr düşür.

Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, dosent Kamal Camalov, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vahid Rzayev, İstanbul İnkuliziv Araşdırmalar Mərkəzinin mütəxəssisi, defektoloq Mehmet Önemli çıxış edərək ailənin mənəvi əsasları, Azərbaycanda ailə institutu və gender bərabərliyi ilə bağlı qəbul edilmiş hüquqi-normativ sənədlər, erkən nikah və boşanma hallarının aradan qaldırılması yolları, ailə münaqişələrinin səbəbləri, ailə psixologiyası və etikası, ailədə davranış mədəniyyəti, yaşlılara hörmət, Qərb-Şərq ailə dəyərləri arasındakı oxşar və fərqli cəhətlər barədə tələbələrə məlumat veriblər.

Maraqlı diskussiya şəklində davam edən dəyirmi masada tələbələrdən Aytən İsmayılova, Çilənay Qurbanlı, Nurlan Hüseynli və digərləri mövzu ilə əlaqədar fəal şəkildə rəy və münasibət bildiriblər. Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri Kamal Camalov və təşkilatın sədr müavini, tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədov, eləcə də universitet müəllimləri tələbələri maraqlandıran sualları cavablandırıblar.

**Mehriban SULTAN**

# Ot-taxıl biçini dövründə yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalıdır



**Dənli və texniki bitkilərin yetişdirilməsi, tədarükü əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət kəsb etdiyindən muxtar respublikamızda bu sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır. Kənd əhalisi onlara verilən torpaq sahələrindən səmərəli istifadə edərək, əsasən, taxılçılığa üstünlük verir. Artıq kəndlilər və fermerlər zəhmət bahasına əkib-becərdikləri taxılın biçilməsi üçün hazırlıq işlərinə başlayıblar. Dənli və texniki bitkilərin, o cümlədən taxılın tədarükü ilə bağlı qarşıya qoyulan vəzifələrdən biri də strateji əhəmiyyətli məhsulların yanğından qorunması, biçin dövründə yanğın təhlükəsizliyi tədbirlərinin düzgün həyata keçirilməsidir.**

Biçin dövründə yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl edilməlidir. Birinci növbədə qeyd etmək istəyirik ki, kənd təsərrüfatı məhsullarının yanğından qorunması təkcə yanğın təhlükəsizliyi orqanları əməkdaşlarının deyil, həm də kənd təsərrüfatında, o cümlədən fermer təsərrüfatlarında çalışan bütün əməkçilərin, təsərrüfat başçılarının, traktorçuların, kombaynçıların, mexanizatorların, mexaniklərin və sürücülərin ümdə vəzifəsi olmalıdır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin şəhər, rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələri tərəfindən muxtar respublika ərazisində aparılacaq ot-taxıl biçini kampaniyası dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi və biçin zamanı yanğınların baş verməsinin əvvəlcədən qarşısının alınması məqsədilə bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Belə ki, biçin dövrü ərzində taxıl sahələrində işləyəcək kənd təsərrüfatı texnikalarına yanğına qarşı baxışlar keçirilmiş, onların sürücüləri və mexanizatorları ilə yanğın təhlükəsizliyi qaydaları haqqında maarifləndirici söhbətlər aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi bir daha sahibkarlara, torpaq mülkiyyətçilərinə və fermerlərə biçin dövrü ərzində aşağıda qeyd olunan yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmasını tövsiyə edir.

Mülkiyyət formasından asılı olmayaraq, hər bir təsərrüfat rəhbəri tabeliyində olan obyektlərin yanğın təhlükəsizliyinə cavabdeh şəxs kimi məsuliyyət daşıyır. Ot biçini və taxıl yığımı başlayan vaxtdan qurtaranadək onlar yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasını tam təmin etməli, bununla bağlı kənd təsərrüfatı əməkçiləri arasında müvafiq maarifləndirmə işlərinə geniş yer verməlidirlər.

Taxıl və ot yığımına başlamazdan öncə bütün təsərrüfat rəhbərləri, biçində iştirak edən hər bir mexanizator, sürücü kənd təsərrüfatı texnikalarını yanğına qarşı hazırlamalı, onları texniki müayinədən keçirməli, ilkin odsöndürücü vasitələrlə təmin etməli, texnikaların yanğın təhlükəsizliyi qaydalarının tələblərinə cavab verməlləri barədə akt tərtib edildikdən sonra onlar işə buraxılmalıdır. Dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyinə nəzarət etmək üçün cavabdeh şəxslər təyin edilməlidir.

Taxıl biçinində iştirak edən traktor və kombayn sürücüləri, onların köməkçiləri, digər mexanizatorlar, eləcə də məhsul yığımına cəlb edilən hər bir şəxs yanğına qarşı təlimatlandırılmalıdır. Yanğın təhlükəsizliyi üzrə təlimat almayan şəxsə məhsul yığımında iştirak etməyə icazə verilməməlidir.

Məhsul yığımında iştirak edən bütün texnikaların mühərriklərinin atqı boruları qığılcımsöndürənlərlə təmin edilməlidir. Əgər məhsul yığımı ilə eyni vaxtda biçilməmiş taxıl zəmilərinin yaxınlığında şumlama işləri aparılarsa, onda həmin traktorlar da mütləq qığılcımsöndürənlərlə təmin edilməlidir.

Taxıl yığımı və ot tədarükü zamanı kombaynın kənar şəxs tərəfindən, onun yedəyə alınmaqla və yüksəklikdən buraxılmaqla işə salınması, kombayna əlavə oturacağın quraşdırılması, yanacaq və yağların sızmasına yol verilməsi, işdən sonra texnikaların sahələrdə saxlanması, kombaynlarda əlavə yanacaq və yağlama materiallarının saxlanılması yanğın təhlükəsizliyi cəhətdən yolverilməzdir.

Dənli və texniki bitkilərin yetişdiyi dövrdə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə meşə zolaqları, avtomobil və dəmir yolları taxıl zəmilərinə yaxın olduqda onların arası biçilməli və eni 4 metrdən az olmamaq şərtilə şumlanmalıdır. Biçilmiş ot taxıl zəmilərindən ən azı 30 metr məsafədə tayalanmalıdır. Taxıl yetişən zaman zəmiləri yanğından qorumaq üçün xüsusi keşikçilər ayrılmalıdır.

Tarla düşərgələrində, taxıltəmizləmə xırmanlarında, ot və küləş tayaları yığılan sahələrdə siqaret çəkmək üçün xüsusi yer ayrılmalı və həmin yer ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməli, eləcə də üzərində "Siqaret çəkmək yeri" yazılmış lövhə asılmalıdır. Digər sahələrdə açıq oddan istifadə etmək qəti qadağandır.

Biçin zamanı taxıl zəmilərinin yaxınlığında baş verə biləcək yanğınların qarşısını almaq məqsədilə kotanlı traktorlar olmalı, taxıl zəmilərində və onların yaxınlığında küləş yandırılması və tonqal qalanmasına yol verilməməlidir. Tarla şəraitində traktor, kombayn və digər maşınların yanacaqla təmin edilməsi, onların mühərriklərinin işi dayandırıldıqdan sonra yanacaqdoldurucu maşınlarla həyata keçirilməlidir. Gecə vaxtı maşınların yanacaqla doldurulması qəti qadağandır.

Kombaynların diyircəklərinin və digər sürtünən hissələrinin qızmasının qarşısını almaq məqsədilə onların vaxtlı-vaxtında yağlanmasına və etibarlı bərkidilməsinə ciddi nəzarət olunmalı, kombaynların və digər texnikaların fırlanan mexanizmlərinə dolaşan küləş kütləsi vaxtlı-vaxtında təmizlənməlidir.

Taxıl xırmanları bina və tikintilərdən 50 metr, taxıl zəmilərindən 100 metr aralı məsafədə yerləşdirilməlidir. Xırmanların ətraf sahələri quru otlardan, yanar materiallardan mütləq təmizlənməli, ətrafı isə 4 metr enində şumlanmalıdır. Bir daha xatırladırıq ki, kənd təsərrüfatı məhsullarının, xüsusən də taxılın oddan qorunması hər bir vətəndaşın borcudur. Taxıl bərəkətdir və o, böyük zəhmət hesabına hasilə gəlir. Bu baxımdan xalqımızın bu müqəddəs və əvəzsiz sərvətini oddan qoruyaq.

**Taxıl biçini dövründə yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin "101" xidməti telefonlarına zəng etməyi unutmayın!**

**Mirtaleh SEYİDOV**
***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşı, daxili xidmət kapitanı***

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Naxçıvan Regional Peşə Tədris Mərkəzinin yaradılması əmək bazarında ixtisaslı kadrlara olan tələbatın ödənilməsində mühüm rol oynayır.*

# İşaxtaranların peşə hazırlığı əmək bazarının əsas tələbidir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar mərkəzdə rəqabətqabiliyyətli ixtisaslar üzrə peşə hazırlığının, xidmət sahələri, habelə əmək bazarının tələbinə uyğun milli və xalq tətbiqi sənəti növləri üzrə peşə kurslarının təşkili, ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədilə onlara tədris müddəti ərzində əmək bazarının tələbinə uyğun peşə ixtisasları barədə məlumatların verilməsi, sosial müdafiəyə ehtiyacı olanların, sağlamlıq imkanları məhdud və cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial reabilitasiyası məqsədilə peşə kurslarının təşkili sahəsində ardıcıl tədbirlər həyata keçirilir.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində Məşğulluq Xidməti orqanları tərəfindən göndərilən işaxtaran vətəndaşlar əmək bazarının tələbinə uyğun peşələrə yiyələnir, onların ixtisaslarının artırılması, eyni zamanda fərdi məşğulluğunun təmin edilməsi, həmçinin müxtəlif idarə, müəssisə və təşkilatlara ixtisaslı kadrların hazırlanması məqsədilə müqavilə bağlanaraq peşə hazırlığı kursları təşkil olunur. Peşə hazırlığının səmərəliliyini yüksəltmək üçün müəssisələrin hansı peşələrə daha çox ehtiyaclarının olduğunu müəyyənləşdirmək məqsədilə sorğular keçirilir. Sorğuların nəticəsi olaraq ixtisaslı kadrlara olan tələbat nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kursların təşkili diqqət mərkəzində saxlanılır.

Peşə kurslarının təşkilində müdavimlərin seçilməsi, qruplaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Belə ki, işaxtaranların yeni peşələrə yiyələnmələri üçün onların əvvəlki peşə, ixtisas və iş təcrübəsi, peşə meyilləri, bacarıq və vərdişləri nəzərə alınır.

Naxçıvan Regional Peşə Tədris Mərkəzi fəaliyyətə başladığı 2009-cu ilin aprel ayından 1 may 2015-ci il tarixədək 133 peşə hazırlıq kursu üzrə 1814 nəfərə müvafiq peşə təhsili verib.

Peşə təhsili alanlardan 771 nəfərini qadınlar, 1442 nəfərini gənclər, 130 nəfərini isə sağlamlıq imkanları məhdud vətəndaşlar təşkil edir. Kursları müvəffəqiyyətlə başa vuran müdavimlərin öz peşə sahələri üzrə münasib işlə təmin olunması da diqqət mərkəzində saxlanılır.

Muxtar respublika sakinlərinə göstərilən məişət xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə bərbər, qadın bərbəri, ofisiant, aşpaz köməkçisi, dərzi, kənd təsərrüfatı, energetika, qaz təsərrüfatı və rabitə sahələrinin ixtisaslı kadrlara olan tələbatını təmin etmək məqsədilə traktorçu-maşınçı, elektrik montyoru, kabel lehimləyicisi və elektrik montyoru, qaz təsərrüfatının istismarı və təmiri üzrə nəzarətçi-çilingər, müasir avadanlıqlarla təmin olunan inzibati və yaşayış binalarının qazanxanalarını ixtisaslı peşə sahibləri ilə təmin etmək üçün qazanxana maşinisti, həmçinin muxtar respublikanın kütləvi informasiya vasitələrində çalışan kadrların təcrübə və peşəkarlıqlarının artırılması məqsədilə fotoqraf, videooperator, kinooperator, televiziya rejissorluğu, teleaparıcı peşəsi üzrə kurslar təşkil olunub.

Muxtar respublikada milli dəyərlərimizin qorunması və yaşadılmasına böyük diqqət və qayğı göstərilir. Xalq sənətkarlığı nümunələrinin incəliklərini öyrənmək və yaşatmaq məqsədilə toxucu, xalçaçı, keçəçi, qalayçı, misgər və ağac üzərində oyma peşələri üzrə kursların təşkil edilməsi qeyd olunanların əyani ifadəsidir.

Muxtar respublikaya qədəm qoyan hər bir turistə peşəkar xidmət göstərmək məqsədilə mərkəzdə bələdçi, cəzaçəkmə müəssisələrindən azad edilən şəxslərin sosial reabilitasiyası üçün Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində misgər və kompüter istifadəçisi peşələri üzrə hazırlıq kursları öz bəhrələrini verib.

Mərkəzdə müdavimlərin zəruri biliklərə yiyələnmələri üçün bütün şərait yaradılıb. Müdavimlər mərkəzdəki elektron lövhə, internet, kompüter sinifləri, emalatxanalar vasitəsilə peşə sirlərini öyrənir, təcrübə məşğələləri ilə bilik və vərdişlərini zənginləşdirirlər. Burada müdavimlər üçün kitabxana, yataqxana, yeməkxana da fəaliyyət göstərir. Muxtar respublikanın rayonlarından gələn müdavimlər yataqxanada qeydiyata alınır, gündə 3 dəfə yeməklə təmin olunurlar.

**Arzu ABDULLAYEV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 438